# Azərbaycan sosial-iqtisadi inkişafın yeni mərhələsində

## *Dövlət başçısı deyib ki, dünyada davam edən iqtisadi-maliyyə böhranı şəraitində düşünülmüş müdrik xarici siyasət, çox operativ addımlar və dərin iqtisadi islahatlar nəticəsində bütün risklər minimuma endirildi*

**Azərbaycanda bu gün sosial-iqtisadi həyatın bütün sahələrində hərtərəfli, geniş və dinamik inkişaf yolunu intensiv davam etdirmək üçün mühüm islahatlar həyata keçirilir, layihələr icra edilir. İstehsal olunan ümumi daxili məhsulların rəqabətqabiliyyətliliyini təmin etmək üçün bütün müvafiq addımlar atılır. Dünya bazarının tələbatı əsasən keyfiyyət, dizayn və qiymət üzrə formalaşır. Bu tələbatlar müəyyən dövrlərdə müvafiq çağırışlarla müşahidə olunur. Həmin çağırışlar isə mütəmadi surətdə dəyişir, istehsal qarşısında müvafiq keyfiyyət, dizayn və qiymət tələbləri qoyur. Bu çağırışlar ilk növbədə təbii ki, real iqtisadiyyata aiddir. Beynəlxalq iqtisadi, siyasi, sosial tendensiyanı və inkişafı nəzərə alan ölkə rəhbərliyi dünya bazarına rəqabətədavamlı məhsullarla çıxmaq üçün bütün lazımi tədbirləri operativ surətdə görür.**

Dövlət başçısı İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarımilliyinin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında beynəlxalq aləmdə baş verən tənəzzül, böhran, hələ ki mənfi istiqamətdə gedən proseslər və bu vəziyyətdə ölkədəki davamlı inkişaf, milli təhlükəsizliyin yüksək səviyyədə qorunması və ictimai-siyasi sabitliyin möhkəmliyi barədə deyib: "Deyə bilərəm ki, 2016-cı ildə dünyanın müxtəlif bölgələrində hərbi toqquşmalar, müharibələr davam edir, yeni münaqişə ocaqları yaranır, dünyada təhlükələr artır. Eyni zamanda, ilin əvvəlindən və ondan əvvəlki dövrdən başlayaraq dünyada iqtisadi böhran daha da dərinləşir və demək olar ki, bütün ölkələr bu və ya digər formada bu böhrandan əziyyət çəkir. Azərbaycanın uğurlu inkişafı təmin edilir, ölkəmizdə təhlükəsizlik yüksək səviyyədə qorunur, ictimai-siyasi sabitlik möhkəmlənir".

Müasir inkişafın təməlində elmi-texniki yeniliklərin operativ və səmərəli tətbiqi dayanır. Elmin və istehsalın qarşılıqlı inkişafı uğurlu nəticələr verir. Bu istiqamətdə, elmin inkişafı ilə bağlı qəbul edilən qərarlar sırasında "2009-2015-ci illərdə Azərbaycan Respublikasında elmin inkişafı üzrə Milli Strategiya" və 2012-ci ilin dekabr ayında xüsusi Fərmanla təsdiq olunmuş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası mühüm yer tutur. Bu sənədlər qloballaşma prosesinin və informasiya cəmiyyətinin qarşıya yeni hədəflər qoyduğu bir dövrdə müvafiq çağırışlara cavab vermək yollarını müəyyən edir. Prezident İlham Əliyev AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncağındakı nitqində elm nümayəndələrinin iqtisadi inkişaf prosesində iştirakı barədə deyib: "Ümumiyyətlə, son illər ərzində bizim siyasətimiz ondan ibarət idi ki, neft-qaz amilindən asılılığımızı maksimum dərəcədə aşağı salaq, ölkə iqtisadiyyatının şaxələndirilməsinə nail olaq, bölgələrdə yeni iş yerlərinin, sənaye müəssisələrinin yaradılması məsələlərini həll edək. Hələ 2004-cü ildə birinci regional inkişaf proqramının qəbulu məhz



bu məqsədi güdürdü. Şadam ki, bu proqramlar artıq ardıcıllıqla icra edilir və bölgələrin siması dəyişilib. Yeni müəssisələr, sosial obyektlər, infrastruktur layihələri ölkəmizi gücləndirir və neft-qaz amilindən asılılığımızı böyük dərəcədə azaldır. Əgər ümumi daxili məhsulumuzun strukturuna baxsaq, görərik ki, hazırda neft-qaz sektoru burada təqribən 30 faiz təşkil edir, gələcəkdə bu rəqəm daha da aşağı düşməlidir. Ancaq bununla bərabər, bu gün biz iqtisadiyyatın yeni modeli haqqında düşünürük. Hökumətə, dövlət qurumlarına müvafiq göstərişlər verilmişdir və çox istərdim ki, bizim alimlərimiz də bu işlərdə fəal iştirak etsinlər".

**(davamı 6-cı səhifədə)**

# Azərbaycan sosial-iqtisadi inkişafın yeni mərhələsində

## *Dövlət başçısı deyib ki, dünyada davam edən iqtisadi-maliyyə böhranı şəraitində düşünülmüş müdrik xarici siyasət, çox operativ addımlar və dərin iqtisadi islahatlar nəticəsində bütün risklər minimuma endirildi*

(əvvəli 1-ci səhifədə)

Beləliklə, düşünülmüş siyasət nəticəsində ölkə hər ili iqtisadi-siyasi uğurlarla və artımla yekunlaşdırır. Davamlı islahatlar, bütün regionlarda böyük quruculuq və abadlıq işlərinin görülməsi, beynəlxalq səviyyəli sənaye və emal müəssisələri yaradılması, müasir elmi-texniki yeniliklərin tətbiqi bu prosesin lokomotividir. Məqsədyönlü siyasət nəticəsində islahatlar davam edir, müvafiq Dövlət proqramları həyata keçirilir, iqtisadiyyatda çoxşaxəlilik daim inkişaf etdirilir və hər bir təsərrüfat sahəsində müasir layihələr reallaşır. İcra mexanizmi olduqca dəqiq və elmi-praktik baxımdan əsaslandırıldığına görə nəticələr çox uğurludur və iqtisadi şaxələndirmə prosesi getdikcə dərinləşir. Yeni yaradılan Azərbaycan iqtisadi modelində əsas odur ki, postneft dövrünə uyğun inkişaf potensialı hərtərəfli öyrənilir, reallaşdırılır, dünya bazarının tələbləri dəyərləndirilir və bu proqnoza əsasən milli mənafelərə uyğun layihələr icra edilir, beynəlxalq standartlara uyğun məhsul istehsal olunur. Dünya bazarında gedən proseslərin inkişaf meyilləri, onun mahiyyəti, ölkənin iqtisadi potensialı, sənaye sahələrinə təklifi daim nəzərə alınır.

Enerji bazarındakı əlverişsiz konyunktur davam edir, region ölkələrində iqtisadi problemlər, Azərbaycanın əsas ticarət partnyorlarının milli valyutalarının ucuzlaşması baş verib, Yaxın Şərqdə gərginlik səngimir, artır, dünya iqtisadiyyatında və maliyyə bazarlarındakı durğunluq, bir çox hallarda tənəzzül, çətinliklər qeyri-müəyyən perspektivdə əsas risklər kimi görünür. Ölkəmiz bu çağırışları diqqətlə, elmi-praktik yönümdən təhlil edərək proqnozlaşdırır və müvafiq qabaqlayıcı addımlar atır.

2009-cu ildən bəri davam edən qlobal iqtisadi və maliyyə böhranına rəğmən innovativ inkişaf, dövlətin bu çağırışlara hazır olmasını, iqtisadiyyata mənfi təsirlərə qarşı yüksək dayanıqlılıq nümayiş etdirdiyini, düşünülmüş və uzaqgörən siyasətin doğruluğunu təsdiq edir.

Əldə edilən nəticələr sübut edir ki, Azərbaycanın inkişaf etmiş ölkələrin səviyyəsinə çatması üçün seçdiyi strateji kurs ən doğru yoldur, dövlətin daha da qüdrətli olmasına istiqamətlənib. Azərbaycan iqtisadiyyatı öz qüdrətini artırdıqca onun dünya ölkələri ilə əməkdaşlığı da genişlənir, bazarlarının sayı artır. Dövlət bu istiqamətdə düşünülmüş, məqsədyönlü addımlar atır. Ölkə rəhbəri Nazirlər Kabinetinin 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında hazırkı davam edən qlobal iqtisadi-maliyyə böhranına baxmayaraq, risklərin minimuma endirildiyi bu ildə də qarşıya qoyulan bütün hədəflərə çatılacağı barədə deyib: "Bir sözlə, baxmayaraq ki, bu gün dünyada iqtisadi-maliyyə böhranı davam edir, gəlirlərimiz azalıbdır, ancaq çox operativ addımlar, dərin iqtisadi islahatlar və düşünülmüş müdrik xarici siyasət nəticəsində biz bütün riskləri minimum səviyyəyə endirdik. Mən ümid edirəm ki, müsbət dinamika 2016-cı ildə davam edəcək. İkinci rübdə iqtisadiyyat daha da sürətlə inkişaf edəcək və biz ilin əvvəlində qarşımıza qoyduğumuz bütün məsələləri həll edəcəyik". Hazırkı dünyada siyasi və iqtisadi müstəqilliyin, sosial rifahın əsasında iqtisadi qüdrət dayanır. Bunun üçün də ölkə rəhbərliyi sosial-iqtisadi inkişafın möhkəm bünövrəsi kimi enerji, ərzaq və nəqliyyat təhlükəsizliyini təmin edərək daim möhkəmləndirir, innovativ inkişafı təmin edir. Bundan başqa, iqtisadiyyatın daha da şaxəliliyinə, bütün zəruri məhsul istehsalına nail olmaq üçün islahatlar aparılır, ölkədə müvafiq konkret Dövlət proqramları həyata keçirilir, layihələr icra olunur.

Ölkə rəhbərliyi müasir dünyamızda istər siyasi, istər iqtisadi, istərsə də sosial sahədə sonu görünməyən çox gərgin kataklizmlər və böhran şəraitində dövlətin iqtisadi və siyasi müstəqilliyini qorumaq, möhkəmləndirmək üçün bütün zəruri addımları atır. Dövlət başçısı İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarımilliyinin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında beynəlxalq aləmdə baş verən tənəzzül və böhranın ölkə iqtisadiyyatına təsiri və bu mənfi təsirə rəğmən sənaye, o cümlədən qeyri-neft sənayesində artım və qarşıda duran əsas vəzifələr barədə deyib: "Baxmayaraq ki, il ərzində neftin qiyməti 3-4 dəfə düşüb, Azərbaycan inkişaf edir. Düzdür, ümumi daxili məhsul bir qədər azalıb. Bunun müxtəlif səbəbləri var. Ancaq sevindirici hal ondan ibarətdir ki, iqtisadiyyatın əsas sahələri — sənaye və kənd təsərrüfatı artıb. Yəni, real sektor artıb. Sənaye istehsalı 0,6 faiz artıb. Düzdür, o qədər də böyük artım deyil, ancaq hesab edirəm ki, bu, böhran ili üçün müsbət haldır. Ölkəmizin qeyri-neft sənayesi 2,4 faiz artıb. Bu, çox ciddi artımdır və hesab edirəm ki, bu artım böyük ümidlər verir. Gələcəkdə bu, daha da artacaq. Çünki bir qədər sonra mən gələcək planlar, o cümlədən sənaye potensialının inkişafı haqqında danışacağam. Əlbəttə ki, Azərbaycanda çox güclü sənaye kompleksi yaradılacaqdır".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**